

Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2



«Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»yə dəyişikliklər edildi

3




Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin QƏRARI

4


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 09-10 (793) 31 may 2024-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Səhiyyə Nazirliyinin nümayəndə heyəti ÜSA-nın 77-ci sessiyasında iştirak edib



7

## Prezident İlham Əliyev Millətlər Birliyi təşkilatının baş katibini qəbul edib



2

## Səhiyyə naziri Naxçıvan Muxtar Respublikasında səfərdə olub



5


Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Səhiyyə Nazirliyində Asiya İnkişaf Bankının departament direktoru ilə görüş keçirilib




6

*Aforizm*

*Sağlamlıq hər şey demək deyil, amma sağlamlıq olmayanda hər şey heç nədir.*

*Sokrat*

# Prezident İlham Əliyev Millətlər Birliyi təşkilatının baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizə səfərindən məmnunluğunu bildirən Patrisia Skotlend səfərinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının ildönümünə təsadüf etməsini xüsusi vurğulayaraq, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət etdiyini bildirib, dahi şəxsiyyətin və onun ömür-gün yoldaşının Azərbaycanın inkişafına verdiyi töhfələri xatırladıb.

Patrisia Skotlend ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyini məmnunluqla qeyd edib, bunun özünü xüsusilə COVID-19 pandemiyası zamanı göstərdiyini vurğulayıb. O, Uqandada Hərəkatın Zirvə toplantısında iştirak etdiyini deyib, orada bütün dövlətlər tərəfindən Azərbaycanın sədrliyinin çox yüksək qiymətləndirildiyini və bunun praktiki nəticələrinin olduğunu qeyd edib. Qonaq Azərbaycanın Hərəkata uğurlu sədrliyi ilə bağlı bir daha təbriklərini çatdırıb.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Patrisia Skotlendin ölkəmizdən yaxşı təəssüratlarla ayrılacağına ümidvar olduğunu deyib.

Dövlət başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində səmərəli fəaliyyət göstərdiyini, Hərəkatın təsisatlanması istiqamətində mühüm addımlar atdığını vurğulayıb. Pandemiya dövründə COVID-19 ilə bağlı BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsünün ölkəmizə məxsus olduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycanın 80-dən çox ölkəyə, xüsusilə Qoşulmama Hərəkatına üzv dövlətlərə yardım göstərdiyini, vaksin millətçiliyinə qarşı BMT təsisatlarında müvafiq qətnamələrin qəbul olunmasını təmin etdiyini, bununla mübarizə istiqamətində beynəlxalq aləmdə səyləri birləşdirmək üçün fəaliyyətini vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Qoşulmama Hərəkatına üçillik sədrliyi üzv dövlətlərin dəstəyi ilə daha bir il müddətinə uzadılıb.

Azərbaycan Prezidenti ölkəmizin Hərəkata sədrliyi dövründə qazandığı beynəlxalq təcrübədən iqlim dəyişikliyi ilə bağlı istifadə edəcəyini, bu məsələdə də səylərini davam etdirəcəyini deyib, iqlim dəyişikliyindən əziyyət çəkən ölkələrə ədalətli yanaşmanı nümayiş etdirəcəyini bildirib.

Dövlət başçısı ölkəmizin Millətlər Birliyi təşkilatı ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu söyləyib.

Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında birgə əməkdaşlıq layihələri və COP29 çərçivəsində kiçik ada dövlətlərinə həsr edilmiş xüsusi iclasın keçirilməsi məsələləri müzakirə olunub.

# Əlillərə verilən dərmanların sayı artırıldı

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ««Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarında dəyişiklik edilməsi barədə» Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Sənədə əsasən, həmin Qaydanın 2 nömrəli əlavəsində – «Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı»nda bəzi dəyişikliklər edilib.

Belə ki, siyahının «Allergiya əleyhinə dərman vasitələri» hissəsinə Loratadin (tablet), «Ürək damar sistemi üçün dərman vasitələri» hissəsinə Amlodipin+İndapamid+Perindopril (tablet), Ramipril (tablet), «Beyin və periferik qan dövranını yaxşılaşdıran dərman vasitələri» hissəsinə Betahistin dihidroxlorid (tablet), Neostiqmin metilsulfat (inyeksiya üçün məhlul), «Həzm sisteminə təsir edən dərman vasitələri» hissəsinə Bisakodil (tablet), «Tənəffüs sisteminə təsir edən dərman vasitələri» hissəsinə Montelukast (tablet), Dornase alfa (inhalyasiya üçün məhlul), Hipertonik natrium xlorid məhlulu+natrium hialuronat (inhalyasiya üçün məhlul), «Vitamin və minerallar» hissəsinə Maqnezium + Piridoksin HCl (tablet), «Antimikrob dərman vasitələri» hissəsinə Metronidazol (tablet), Ofloksasin (tablet), Ko-trimoksazol (tablet), Tobramisin (inhalyasiya üçün məhlul), Siprofloksasin (tablet), «Epilepsiya əleyhinə dərman vasitələri» hissəsinə Preqabalin (kapsul), «Bazis iltihab əleyhinə (immunosupressiv) dərman vasitələri» hissəsinə Mikofenolat turşusu (tablet), «Antipsixotik dərman vasitələri» hissəsinə Olanzapin (tablet), «Trankvilizedici dərman vasitələri» hissəsinə Tetrametiltetraazabisiklooktandion (tablet) preparatları əlavə olunub.

Siyahıya həmçinin «Metabolik proseslərə təsir edən dərman vasitələri» adlı yeni hissə əlavə edilib. Bu hissəyə L-karnitin (levokarnitin) (məhlul) preparatı daxildir.




# Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində «Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi» (bundan sonra – Mərkəz) publik hüquqi şəxs yaradılsın.

**2.** Müəyyən edilsin ki, Mərkəz «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibb müəssisələrinin akkreditasiyası, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi üzrə tədbirlər görülməsi, habelə tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı dəstək xidmətləri göstərilməsi sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

**3.** Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin yenidən təşkili və ləğvi;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. Mərkəzin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.2.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

3.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olunmaqla, «Publik hüquqi şəxslər haqqında» Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, tibb müəssisələrinin akkreditasiyası ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. iki ay müddətində:

4.2.1. Mərkəzin nizamnaməsini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2.2. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən Mərkəzin inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

5.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) bir ay müddətində təsdiq etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 may 2024-cü il*

# «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»yə dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə Qərar imzalayıb.**

Sənədə əsasən, Əsasnamənin 1.4-cü bəndinin «c» yarımbəndinə «aparılmasına» sözündən sonra «(Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (bundan sonra – Agentlik) tərəfindən aparılan müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi istisna olmaqla)» sözləri, eləcə də 1.11-ci bəndin birinci abzasına «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi» sözlərindən sonra «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi» sözləri əlavə edilib.

Əsasnamənin «İlkin hərbi qeydiyyata alınarkən və hərbi xidmətə çağırılarkən vətəndaşların şəhadətləndirilməsi» adlanan II hissəsi yeni redaksiyada verilib. O cümlədən bildirilib ki, ilkin hərbi qeydiyyata alınarkən şəhadətləndirilməyə qədər vətəndaşlara dövlət tibb müəssisələrində hər il tibbi baxışlar, müayinələr (müşahidələr), habelə müalicə-sağlamlıq tədbirləri keçirilir və profilaktik peyvəndlər edilir: «Tibbi baxışların, müayinələrin (müşahidələrin), müalicə-sağlamlıq tədbirlərinin və profilaktik peyvəndlərin təşkili və keçirilməsi tibb müəssisələrinə həvalə olunur. Tibbi baxışların, müayinələrin (müşahidələrin), müalicə-sağlamlıq tədbirlərinin və profilaktik peyvəndlərin təşkili və keçirilməsi, qeydiyyat və hesabat aparılması, bu iş üzərində nəzarətin həyata keçirilməsi qaydaları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə birlikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən müəyyən edilir».

Həmçinin qeyd olunub ki, vətəndaşların şəhadətləndirilməsi məqsədilə Daxili İşlər, Elm və Təhsil, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə nazirliklərinin, Dövlət Miqrasiya Xidmətinin, Dövlət İmtahan Mərkəzinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), habelə digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri Səfərbərlik və Hərbi



Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Vahid Elektron İnformasiya Sisteminə (VEİS) inteqrasiya edilir.

Əsasnamənin 2.4-cü bəndində vurğulanır ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinin göndərişinə əsasən vətəndaşlar şəhadətləndirilmə prosesində tələb olunan müayinələrdən keçirlər. Bu məqsədlə onların göndəriləcəkləri tibb müəssisələrinin siyahısı, habelə keçəcəkləri tibbi müayinələrin həcmi və qaydası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB ilə razılaşdırılmaqla, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən müəyyən edilir. Tibb müəssisələrinin, eləcə də Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinin rəhbərləri vətəndaşların vaxtında müayinə və müalicə olunmasını təmin etməlidirlər.

Çağırışaqədər yaş həddində olanların sağlamlıq vəziyyətinə dair məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in elektron informasiya sistemlərindən əldə olunaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçının uçot kartına əlavə olunur.

Tibb müəssisələri çağırışaqədər yaş həddində olanların və çağırışçıların Dövlət Xidmətinin göndərişi əsasında tibbi müayinələrdən mümkün qısa vaxt ərzində növbədənkənar keçirilməsini təmin etməlidirlər.

Dövlət Xidməti tərəfindən yaradılmış ilkin hərbi qeydiyyata alma komissiyası və hərbi həkim komissiyaları tibbi müayinələrin nəticələrini təhlil edir. Azı 9 nəfərdən ibarət həkim və mütəxəssis tərəfindən (cərrah, terapevt, nevropatoloq, psixiatr, oftalmoloq, otorinolarinqoloq, stomatoloq, dermato-veneroloq, psixoloq və zərurət olduqda digər ixtisaslardan olan həkim-mütəxəssislər cəlb edilməklə) əyani tibbi müayinə aparılır, elektron sənəd formasında alınan rəy həkim və mütəxəssislərin elektron imzası ilə təsdiqlənir.

Diaqnozun dəqiqləşdirilməsi, yaxud müalicə zərurəti yarandığı halda, çağırışaqədər yaş həddində olanlar və çağırışçılar ixtisaslaşmış tibb müəssisələrinə əlavə ambulator və ya stasionar tibbi müayinələrin keçirilməsinə və ya müalicəyə göndərilirlər. Onların nəticələri barədə akt tərtib edilir, tibb müəssisələri tərəfindən Səhiyyə Nazirliyinin və ya TƏBİB-in elektron informasiya sistemlərindən VEİS-yə ötürülür və vətəndaşa təqdim edilir.

Əsasnaməyə həmçinin «Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların şəhadətləndirilməsi zamanı yekun tibbi müayinənin aparılması» adlı II-1-ci hissə əlavə edilib.

Bildirilir ki, yekun tibbi müayinənin aparılması məqsədilə VEİS, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in, habelə digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (MEİS) inteqrasiya edilir.

Çağırışçının yekun tibbi müayinəsi Agentlikdə fəaliyyət göstərən tibbi qiymətləndirmə komissiyaları tərəfindən həyata keçirilir. Çağırışçı avtomatlaşdırılmış növbə seçimi əsasında müvafiq həkimə yönləndirilir. Həkim-mütəxəssis tərəfindən çağırışçının əyani və instrumental tibbi müayinəsi həyata keçirilir, laborator və əlavə diaqnostik müayinələrə zərurətin olub-olmadığı aydınlaşdırılır. Belə müayinələrin aparılmasına zərurət olduğu müəyyən edilərsə, Agentlikdə müvafiq tibbi müayinələrin həyata keçirilməsi üçün göndəriş verilir. Agentlikdə mövcud olmayan digər tibbi müayinə tələbləri üzrə göndəriş elektron formada tibb müəssisələrinə göndərilir. Tibb müəssisələri tərəfindən tibbi müayinələrin aparılmasına dair göndəriş əsasında çağırışçının mümkün qısa vaxt ərzində növbədənkənar müayinəsi aparılır və müayinəyə dair məlumatlar Səhiyyə Nazirliyinin və ya TƏBİB-in elektron informasiya sistemlərindən altsistemə ötürülür, həmçinin çağırışçıya təqdim edilir.

Çağırışçı yekun tibbi müayinəyə dair qəbul edilmiş qərarlardan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılan Apellyasiya Şurasına və ya məhkəmə qaydasında şikayət verə bilər. Şura 7 üzvdən – sədr nümayəndələrindən biri olmaqla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Müdafiə Nazirliyinin, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in hərəsinin 1 məsul şəxsindən ibarətdir. Şuraya verilmiş şikayətlərə 5 gün müddətində baxılır və qəbul edilən qərarlar 5 gün ərzində altsistemə daxil edilir.

Əsasnamədə yeni redaksiyada verilmiş «Xəstəliklər cədvəli» ayrı-ayrı xəstəlik qrupları üzrə aşkarlanmış xəstəlikləri və funksiyaların pozulma dərəcəsini göstərməklə, hər bir hal üçün hərbi xidmətə yararlılıq kateqoriyasını müəyyən edir.

Nazirlər Kabinetinin yeni Qərarına əsasən, Əsasnaməyə əlavə olunan «Tənəffüs (ağciyər) çatışmazlığı dərəcələrinin göstəriciləri», «Oynaqlarda hərəkətin həcminin qiymətləndirilməsi cədvəli (dərəcə ilə)» və «Vətəndaşların sağlamlıq vəziyyətinə dair əlavə tələblər» adlı 1, 2 və 3 nömrəli cədvəllər yeni redaksiyada verilib.

# Nazirlər Kabineti tibbi-sosial ekspertizaya göndəriş Qaydasına dəyişiklik etdi

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası»nda dəyişiklik edilməsi barədə» Nazirlər Kabinetinin Qərarını imzalayıb.

Sənədə əsasən, adıçəkilən Qaydalarda bir sıra dəyişikliklər edilib. O cümlədən 1.1-ci bənddə «verilməsini» sözü «verilməsi ilə bağlı münasibətləri» sözləri ilə, 1.2-ci bənddə «əlçatanlığı» sözü «şəffaflığının və əlçatanlığının təmin edilməsi» sözləri ilə, 1.2-1.4-cü bəndlərdə ismin müvafiq hallarında «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri ismin müvafiq hallarında «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

1.5-ci bəndə «əsas» sözündən sonra «şərtlər» sözü, 1.5.3-cü yarımbəndə «xəstəliklərin» sözündən sonra «bu Qaydaya 2 nömrəli əlavədə qeyd olunan müalicə müddətləri nəzərə alınmaqla» sözləri əlavə olunub.

1.5.2-ci yarımbənddə «əqli pozuntuların və anatomik çatışmazlıqların, dərmanlara davamlı vərəm formalarının, IV mərhələ onkoloji xəstəliklərin, V mərhələ xroniki böyrək xəstəliyinin» sözləri «bu Qaydaya 1 nömrəli əlavədə qeyd olunan xəstəliklərin» sözləri ilə, 1.5.4-cü yarımbənddə «faizinin» sözü «dərəcəsinin» sözü ilə, 2.3-cü bənddə «3 (üç) iş günü müddətindən gec olmayaraq» sözləri «dərhal» sözü ilə əvəz edilib.

Aşağıdakı məzmunda 1.6-cı bənd əlavə olunub: «Bu Qaydanın 1.5-ci bəndində göstərilən əsas şərtlər mövcud olmadıqda, habelə şəxs bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan hallarda zəruri diaqnostik müayinələrdən keçməkdən imtina etdikdə Komissiya göndəriş verməkdən imtina edir».

2.4-cü bəndə «olduğu yerdə» sözlərindən əvvəl «ölkə hüdudları daxilində» sözləri əlavə olunub.

2.5-ci bənddə «həmin gün» sözləri «qərarın qəbul edildiyi gündən sonra 5 (beş) iş günü müddətindən gec olmayaraq» sözləri ilə, 2.8-ci bənddə «1.5-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, digər» sözləri «1.6-cı bəndində nəzərdə tutulan» sözləri ilə əvəz edilib.

Qərara əsasən, «Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası»na 1 nömrəli əlavə – «Müddət gözlənilmədən göndəriş verilməsinə əsas verən xəstəliklərin siyahısı» və həmin Qaydaya 2 nömrəli əlavə – «Təkrar əlillik müraciətləri üçün tələb olunan minimal müalicə müddətləri» təsdiq edilib.

# Nazirlər Kabineti TƏBİB-lə bağlı qayda qəbul etdi

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ««Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə Qaydası»nın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin Qərarını imzalayıb.

Sənəddə qeyd edilir ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti adıçəkilən Qaydanı təsdiq edir.

Bu Qayda «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun 56-cı maddəsinin altıncı hissəsinə uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinə əsasən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən tətbiq edilən cərimələrdən toplanan və TƏBİB-in xüsusi hesabına köçürülən vəsaitdən istifadə ilə bağlı məsələləri tənzimləyir.

Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, vəsait bu Qaydaya uyğun olaraq istifadə olunur. Vəsait dövlətin mülkiyyəti hesab edilir, TƏBİB-in sərəncamındadır, onun sərəncamçısı dəyişdirilə bilməz.

Sənəddə bu vəsaitin formalaşdırılması, gəlirlər və xərclər smetasının təsdiq edilməsi qaydası müəyyən edilir. Həmçinin bildirilir ki, vəsait TƏBİB-in aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların aylıq vəzifə maaşlarına əlavələrin verilməsi üçün xərclənir. Qaydalarda bu əlavələrin hesablanması və ödənilməsi qaydası da göstərilir.

# «Azərbaycan Respublikasında doğum, ölüm və perinatal ölüm halları haqqında» rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında» Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 21 may tarixli 285 nömrəli qərarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin QƏRARI*

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə»nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi **qərara alır:**

**1.** «Azərbaycan Respublikasında doğum, ölüm və perinatal ölüm halları haqqında» rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında» Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 21 may tarixli 285 nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.

**2.** Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

**3.** Aparatın Əhali statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

**4.** Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr Tahir BUDAQOV**

*Bakı şəhəri, 8 may 2024-cü il*

# Səhiyyə Nazirliyində Küveytin ölkəmizdəki səfiri ilə görüş keçirilib



**Səhiyyə Nazirliyində Küveyt Dövlətinin ölkəmizdəki səfiri Abdullah Mohamed Abdullah Almauidi ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, **səhiyyə naziri Teymur Musayev** Azərbaycanla Küveyt arasında ikitərəfli əlaqələrinin bir çox sahələrdə uğurla davam etdiyini diqqətə çatdırıb. Nazir dövlətlərarası münasibətlərin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini də vurğulayıb.

Teymur Musayev Azərbaycanla Küveyt arasında səhiyyə sahəsində də ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirib.

Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan nazir bu sahənin modernləşdirilməsi, rəqəmsallaşdırılması, insan kapitalının inkişafı və səhiyyə iqtisadiyyatının gücləndirilməsinin Azərbaycan üçün prioritet məsələlərdən biri olduğunu qeyd edib: «Bu sahədə Azərbaycan qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqinə, qarşılıqlı fikir mübadiləsinin aparılmasına xüsusi əhəmiyyət verir».

Nazir həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının — COP29-un bu ilin noyabrında Azərbaycanda keçiriləcəyini diqqətə çatdıraraq deyib: «Dövlətimizin başçısı vurğulayıb ki, beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür».

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

**Abdullah Mohamed Abdullah Almauidi** dövlətlərimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimizin tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu qeyd edib.

Diplomat ölkəsinin Azərbaycanla səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu ifadə edib.

Görüşdə tibb təhsili və bu sahədə peşəkar kadrların hazırlanmasının, tibb universitetləri ilə milli səhiyyə institutları arasında təcrübə mübadiləsi aparılmasının vacibliyi vurğulanıb.

# Səhiyyə Nazirliyində Qlobal Fondun missiyası ilə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun Portfolio meneceri Olqa Avdeyevanın başçılıq etdiyi missiya ilə görüş keçirilib.**



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə **səhiyyə naziri Teymur Musayev** Azərbaycanın Qlobal Fondla əməkdaşlığa önəm verdiyini qeyd edib. Onun sözlərinə görə, Səhiyyə Nazirliyinin Qlobal Fondun missiyaları ilə mütəmadi keçirilən görüşləri mövcud əlaqələrin daha da inkişafına böyük dəstək verir.

Teymur Musayev QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun 2005-ci ildən etibarən Azərbaycanda vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak etdiyini bildirib: «Hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və bu, ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfədir».

T.Musayev həmçinin ötən ilin martında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycanı «malyariyadan azad ölkə» kimi sertifikatlaşdırmasını xatırladıb. «Malyariya ilə mübarizədə uğur həm də ÜST-nin aparıcı mövqe tutduğu tərəfdaşların uzun illər hərtərəfli dəstəyi sayəsində mümkün olub».

Sonda Teymur Musayev Azərbaycan Səhiyyə Nazirliyi ilə Qlobal Fond arasında səmərəli əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyini qeyd edib.

Öz növbəsində **Qlobal Fondun missiya rəhbəri Olqa Avdeyeva** Azərbaycanın «malyariyadan azad ölkə» kimi sertifikatlaşdırılmasını yüksək qiymətləndirib: «Bu nailiyyət səhiyyə işçilərinin davamlı fədakarlığı, həmçinin malyariya hallarının məqsədyönlü şəkildə qarşısının alınması, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olub».

Azərbaycanın QİÇS və digər yoluxucu xəstəliklərə qarşı mübarizə sahəsində gördüyü işləri müsbət qiymətləndirən Olqa Avdeyeva göstəricilərin region üzrə uğurlu olduğunu bildirib. Missiya rəhbəri həmçinin Qlobal Fondun Azərbaycan Səhiyyə Nazirliyi ilə birgə bir sıra mühüm layihələrinin icra olunduğunu vurğulayıb.

Görüşdə əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

# Səhiyyə naziri Naxçıvan Muxtar Respublikasında səfərdə olub

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 və Naxçıvan səhiyyəsinin 100 illiyi münasibətilə «Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində görülən işlər və qarşıda duran vəzifələr» mövzusunda konfrans keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev tədbirdə iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə güllər düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Ardınca Heydər Əliyev Muzeyi ziyarət edilib, Ümummilli Liderin mənalı ömür yolunu, çoxşaxəli fəaliyyətini əks etdirən dəyərli eksponatlarla tanışlıq olub.




### Tibb müəssisələri ilə tanışlıq

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Uşaq Xəstəxanasının fəaliyyəti ilə maraqlanıb, xəstəxanada yeni yaradılan Təcili tibbi yardım bölməsinə baxıblar. Bildirilib ki, bölmə funksional çarpayılar, xəstəbaşı monitorlar, infuzomatlar, perfuziya aparatı ilə təmin edilib. Burada xəstələrin yaşıl, sarı və qırmızı sahələr üzrə triaj sistemi tətbiq edilir.

Sonra Naxçıvanda yeni yaradılan Təcili Tibbi Yardım Mərkəzinin fəaliyyəti ilə tanışlıq olub. Mərkəzdə qurulan müasir sistemlə bağlı məlumat verilib ki, Muxtar Respublika üzrə fəaliyyət göstərən təcili tibbi yardım avtomobilləri daxili və xarici müşahidə kamerası və GPS sistemi ilə təchiz edilib. Modern texniki və tibbi avadanlıqlarla tam təchiz olunmuş reanimobillər təcili tibbi yardım işinin təşkilində xidmətin keyfiyyətini artıracaq. Mərkəzdə fəaliyyət göstərən «103 Çağrı Mərkəzi»ndə quraşdırılan proqram təminatı vahid koordinasiya mərkəzindən idarəolunmanı təmin edir. Yeni sistem real vaxt rejimində təcili tibbi yardım avtomobillərinin hərəkətinə onlayn xəritə və canlı video vasitəsilə nəzarət etməyə imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının tam avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərən beynəlxalq akkreditasiyalı laboratoriyası ilə tanışlıq zamanı qeyd edilib ki, burada klinik laborator diaqnostikanın bütün sahələri üzrə keyfiyyətli və dəqiq xidmət göstərilir.

Xəstəxananın Təcili tibbi yardım şöbəsində aparılan yenidənqurma işləri barədə məlumat verilib ki, xidmət xəstələrin vəziyyətinə görə təcili yardımın müvafiq 3 sahəsinə uyğun təşkil edilib və zəruri tibbi avadanlıqlarla təchiz olunub. Həmçinin xəstəxanada müxtəlif tibbi profilli təlimlərin keçirilməsi məqsədilə 60 və 15 nəfərlik olmaqla müasir təchizatlı 11 təlim-treninq otağı yaradılıb. Treninq otaqlarına şəhid olmuş tibb işçilərinin adları verilib.



### Naxçıvan səhiyyəsinə həsr olunan konfrans

Sonra xəstəxananın konfrans zalında «Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində görülən işlər və qarşıda duran vəzifələr» mövzusunda konfrans öz işinə başlayıb.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təqdim etdiyi videoçarxa baxış olub.

Konfransın Azərbaycanın müstəqillik və dövlətçilik tarixində müstəsna yeri olan 28 May – Müstəqillik Günü ərəfəsində keçirildiyini deyən **Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli** əlamətdar gün münasibətilə hər kəsi təbrik edib. Qeyd edib ki, Ümummilli Lider Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən milli istiqlalımız uğrunda aparılan mübarizəni yüksək qiymətləndirib, müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi uğrunda misilsiz xidmətlər göstərib. 2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü ildə antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub, regionda yeni reallıqlar yaranıb. Azərbaycan Xalq Cümhuriyyətinin mirası olan üçrəngli bayrağımızın Şuşada və işğaldan azad olunmuş digər ərazilərdə dalğalanmasının qürurunu yaşayırıq. Qarabağda geniş quruculuq işləri gedir.

«Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı»na uyğun olaraq görülən işlər barədə məlumat verən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, icrası davam etdirilən 11 prioritet istiqamətdən biri də səhiyyənin müasir inkişafının təmin olunmasıdır. Hazırda Naxçıvan səhiyyəsinin maddi-texniki bazasının və kadr potensialının təkmilləşdirilməsi ilə bağlı mühüm layihələr icra olunur, innovativ yeniliklərə əsaslanan rəqəmsal səhiyyə sistemi qurulur. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Naxçıvanın səhiyyə sistemində özünəməxsus rol oynadığını bildirən Fuad Nəcəfli vurğulayıb ki, sözügedən Dövlət Proqramına uyğun olaraq fakültə üçün əlavə kampus inşa olunacaq.

Səlahiyyətli nümayəndə ötən qısa dövrdə Muxtar Respublikada aparılan səhiyyə islahatları barədə məlumat verib, bu işlərin təşkilində dəstəyinə görə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə, eləcə də əməyi olan hər kəsə təşəkkür edib, konfransın işinə uğurlar arzulayıb.

**Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** konfrans iştirakçılarını müstəqil və suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda salamlamaqdan məmnunluğunu ifadə edib. Nazir diqqətə çatdırıb ki, son illər Muxtar Respublikada institusional və qanunvericilik baxımından mühüm islahatlar həyata keçirilir. Bu islahatlar səhiyyə sistemində də özünü effektiv şəkildə göstərir. Yeni tibb müəssisələri istifadəyə verilir, mövcud tibbi resurslar yenilənir, müasir texnologiyalar tətbiq edilir. «Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı»nda Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində göstərilən xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılması, ixtisaslı kadrların yetişdirilməsi, özəl səhiyyə müəssisələrinin yaradılması kimi mühüm məsələlərin yer alması bu sahədə fəaliyyətin daha təkmil, müasir və etibarlı təşkilinə zəmin yaradacaq.

Nazir qeyd edib ki, Azərbaycanda tibbi islahatlar 3 əsas istiqamət üzrə – səhiyyədə çalışan insan kapitalının formalaşması, səhiyyənin rəqəmsallaşması və yeni səhiyyə iqtisadiyyatı, yəni səhiyyənin maliyyələşməsində yeni mexanizmlər yönündə aparılır. Sevindirici haldır ki, son illər Naxçıvan Muxtar Respublikasında bu istiqamətlərdə əsaslı işlər görülüb. Xüsusilə tibbi təhsilin inkişafı istiqamətində mühüm addımlar atılır. Bütün bunlar Naxçıvanın yaxın gələcəkdə regional tibbi təhsil və tədqiqat mərkəzi kimi formalaşmasına xidmət edəcək.

**Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov** Naxçıvanda fəaliyyət göstərən tibbi personal adından bu sahədə həyata keçirilən islahatları dəstəklədiklərinə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə və Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə təşəkkür edib.

Samiq Sadıxov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq son illər Muxtar Respublikada kompleks səhiyyə islahatları aparılır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında rezidentlərin hazırlanması üçün klinik baza kimi müəyyən edilmiş tibb müəssisələrinin siyahısında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən 11 tibb müəssisəsi də yer alır. Muxtar Respublikada əhali pulsuz tibbi prosedurlarla və müvafiq dərman vasitələri ilə təmin edilib. Həkim və tibb bacılarının peşəkarlığının artırılması üçün Türkiyənin Hacettepe və Qazi Universitetlərinin xəstəxanaları ilə əməkdaşlıq haqqında müqavilələr imzalanıb. Razılaşmaya əsasən 80-ə yaxın tibb işçisi sözügedən universitetlərdə təlim və təcrübələrdə iştirak edib. Bu proses mərhələli şəkildə davam etdiriləcək. Bundan başqa, tibbi personalın əməkhaqqı əhəmiyyətli şəkildə artıb, həkimlər üçün əlavə stimullar tətbiq olunur. Bütün bunların nəticəsidir ki, ölkəmizin digər bölgələrindən də rezidentlər Naxçıvanın tibb müəssisələrini seçirlər.

Konfransda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təqdim etdiyi «Ümid əllərdə» videoçarxına baxış olub.

«Naxçıvan Muxtar Respublikası Həkimlər Assosiasiyası» İctimai Birliyinin sədri İsa Abdullayev klinik tibbi bazaların Naxçıvan Muxtar Respublikası üzrə fəaliyyəti barədə məlumat verib. Ona Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin diplomu təqdim olunub.

Sonda Səhiyyə sisteminin elektron idarəedilməsi və «103 Çağrı Mərkəzi»nin proqram təminatları, təcili tibbi yardım xidmətində videotelematik sistemin tətbiqi və e-səhiyyə sisteminin təqdimatları olub.

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndidə keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası Xankəndi şəhərində keçirilib.**



Səhiyyə Nazirliyinin Mətbuat xidmətinin verdiyi məlumata görə, iclas iştirakçıları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Qərargah rəhbəri açılış nitqində bildirib ki, Ulu Öndər Xankəndi şəhərinin inkişafına xüsusi diqqət yetirib. Qeyd edilib ki, Xankəndidəki binaların əksəriyyəti, o cümlədən bugünkü iclasın keçirildiyi Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin yerləşdiyi bina da məhz Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə inşa edilib.

Qərargahın rəhbəri Ulu Öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasətin nəticəsində Azərbaycanın tarixi Qələbə qazandığını və ərazi bütövlüyünün və suverenliyinin hərbi-siyasi yolla tam bərpa edildiyini söyləyib.

Qərargahın rəhbəri bildirib ki, dövlət başçısının rəhbərliyi ilə azad edilmiş bütün ərazilərdə, o cümlədən lokal antiterror tədbirlərindən sonra suverenliyin bərpa edildiyi ərazilərdə sürətli bərpa-quruculuq işləri davam etdirilir və ilin sonunadək köç qrafikinə uyğun müvafiq yaşayış məntəqələrinə əhalinin geri qayıdışı nəzərdə tutulur.

Dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə müasir infrastrukturun yaradılması, o cümlədən ərazilərin milli iqtisadiyyata sürətli reinteqrasiyası və dayanıqlı inkişafının təmin olunması istiqamətində çoxşaxəli layihələrin həyata keçirildiyi bildirilib. Bununla yanaşı, Qərargah rəhbəri qeyd edib ki, görülən kompleks tədbirlər geri qayıdan əhalinin layiqli yaşayış şəraitinin yaradılmasına və rifah halının yüksəldilməsinə xidmət edir.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı»nın icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məşğulluğun və məskunlaşmanın təmin edilməsi, iqtisadi aktivliyin və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, kənd təsərrüfatı sahəsində, yaşayış məntəqələrinin yenidən qurulması və bərpası üzrə görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, həmin ərazilərdə sosial infrastrukturun, o cümlədən səhiyyə və təhsil müəssisələrinin tikintisi və işinin təşkilinə dair məlumatlar təqdim edilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin fəaliyyəti çərçivəsində görülən işlər və qarşıda duran vəzifələr barədə Prezidentin xüsusi nümayəndəsi çıxış edib.

Qərargahın rəhbəri işğaldan azad olunmuş ərazilərə bu ilin sonunadək 27 yaşayış məntəqəsi üzrə geri qayıdacaq əhalinin sayının ümumilikdə 25 min nəfərdən çox olacağını və növbəti illərdə bu rəqəmin getdikcə artacağını diqqətə çatdıraraq, «Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində görülən işlərin keyfiyyətli, vaxtında və əlaqələndirilmiş şəkildə icrasının vacibliyini xüsusi vurğulayıb.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək müvafiq tapşırıqlar verilib.

İclasdan sonra Xankəndi və Xocalı şəhərlərində, həmçinin Əsgəran qəsəbəsində müvafiq ərazilərə və bir sıra obyektlərə baxış keçirilib.

## Səhiyyə Nazirliyində Asiya İnkişaf Bankının departament direktoru ilə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində Asiya İnkişaf Bankının (AİB) Mərkəzi və Qərbi Asiya üzrə sektor qrupunun İnsan kapitalı və sosial inkişaf departamentinin direktoru Sofiya Şakil ilə görüş keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən xəbər verilir ki, qonaqları salamlayan **səhiyyə naziri Teymur Musayev** Azərbaycanla Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığın olduğunu bildirib, son illər birgə regional fəaliyyətin dinamik şəkildə inkişaf etdiyini vurğulayıb.

Teymur Musayev söyləyib ki, mütərəqqi texnoloji həllərdən istifadə səhiyyə sistemində aparılan islahatların əsasını təşkil edir, sektorun təkmilləşdirilməsi, xüsusilə də rəqəmsallaşması və insan kapitalının inkişaf etdirilməsi ölkəmiz üçün prioritet məsələdir. Nazirin sözlərinə görə, Asiya İnkişaf Bankı ilə müxtəlif sahələrdə əməkdaşlıq ölkəmizdə qabaqcıl beynəlxalq təcrübə baxımından xüsusi əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, Səhiyyə Nazirliyi Asiya İnkişaf Bankı ilə əməkdaşlığın genişləndirməsinə önəm verir.

Səmimi qəbula görə minnətdarlığını bildirən **AİB-nin departament direktoru Sofiya Şakil** ölkəmizin səhiyyə sistemində aparılan innovativ islahatların dəstəkləndiyini vurğulayıb, Asiya İnkişaf Bankı tərəfindən Azərbaycanla 2024-2028-ci illər üçün Ölkə Tərəfdaşlığı Strategiyasının (ÖTS) həyata keçirməsinə başlandığını qeyd edib. Onun sözlərinə görə, bu sənəd AİB - Azərbaycan tərəfdaşlığının uzunmüddətli prioritetlərini, o cümlədən səhiyyə sektorunda əməkdaşlıq hədəflərini müəyyən edir. Sofiya Şakil Asiya İnkişaf Bankının Azərbaycanın səhiyyə sektoruna hər zaman dəstək göstərməsinə hazır olduğunu da vurğulayıb.

Görüş zamanı ÖTS-nin növbəti dövrü ərzində potensial əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan ilə Kuba arasında səhiyyə və tibb elmi sahəsində səmərəli əməkdaşlıq mövcuddur

**Səhiyyə Nazirliyində Kubanın ölkəmizdəki səfiri Karlos Enrike Valdes de la Konsepsyon ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə **naziri Teymur Musayev** Azərbaycanla Kuba arasında səmərəli əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla davam etdiyini vurğulayıb. Teymur Musayev xalqlarımız arasında dostluq əlaqələrinin inkişafında dövlət başçılarının müstəsna rolunu qeyd edib.

Nazirin sözlərinə görə, səhiyyə və tibb elmi sahəsində də Azərbaycan - Kuba əməkdaşlığı nümunəvidir. Kubanın milli səhiyyəsinin dünyada ən yaxşı sistemlərdən biri olduğunu qeyd edən Teymur Musayev Azərbaycan Səhiyyə Nazirliyinin nümayəndə heyətinin ötən ilin noyabrında dost dövlətə səfərini və Baş nazir Manuel Marrero Krusla görüşünü xatırladıb: «Səfər çərçivəsində bir sıra əhəmiyyətli və məhsuldar görüşlər baş tutub. Nümayəndə heyəti Kuba Respublikasının aparıcı tibb və əczaçılıq müəssisələrini ziyarət edərək, onların fəaliyyəti ilə tanış olub. Həmçinin Azərbaycanın Səhiyyə Nazirliyi ilə Kubanın İctimai Səhiyyə Nazirliyi arasında Anlaşma Memorandumu imzalanıb. Sənəd iki dost ölkənin səhiyyə sisteminin gücləndirilməsinə, eyni zamanda, əhalinin sağlamlığının inkişafına öz töhfəsini verəcək».

**Karlos Enrike Valdes de la Konsepsyon** Kubanın Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirdiyini vurğulayıb: «Azərbaycan və Kuba arasında bir çox sahələrdə sıx əlaqələr mövcuddur. Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələr qurulub. Bu müddətdə Kuba və Azərbaycan dövlətlərinin qarşılıqlı münasibətləri müsbət dinamika ilə inkişaf edir».

Sonda kubalı səfir bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də dinamik əməkdaşlığın vacibliyini bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyinin nümayəndə heyəti ÜSA-nın 77-ci sessiyasında iştirak edib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İsveçrə Konfederasiyasının Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Ümumdünya Səhiyyə Assambleyasının (ÜSA) 77-ci sessiyası işə başlayıb. Builki Səhiyyə Assambleyası «Hər şey sağlamlıq üçün, sağlamlıq hər kəs üçün» şüarı altında keçirilir.**

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, Assambleyada Azərbaycan Respublikası səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunur.

77-ci sessiya çərçivəsində Ümumdünya Səhiyyə Assambleyası 2025-2028-ci illər üçün iş proqramının layihəsini, vərəm və poliomielit xəstəliklərinin aradan qaldırılması strategiyasını, diqqətdən kənarda qalan tropik xəstəliklərlə mübarizə üzrə yol xəritəsini, dəyişən iqlim şəraitində sağlamlığın qorunması tədbirlərini və digər aktual məsələləri nəzərdən keçirir.

ÜSA ÜST-nin əsas illik forumu, ali məclisidir. Qurumun siyasətini müəyyən edən ali qərar qəbuledici orqan olan assambleyanın budəfəki toplantısında dəvət olunmuş 194 dövlətin nümayəndələrinin diqqəti həmçinin pandemiyanın qarşısının alınmasına dair Saziş üzrə 2021-ci ildən davam edən işlərə yönəlib.

Assambleyanın açılış mərasimində öz salamlama nitqində ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, 76 il əvvəl bu qurum yaradılarkən ümumi məqsəd məhz hamı üçün sağlamlıq idi: «ÜST Konstitusiyası heç bir fərq qoyulmadan ən yüksək sağlamlıq standartının bütün insanların fundamental hüququ olduğunu təsdiq edən ilk beynəlxalq hüquqi sənəd idi. Bu gün isə ən azı 140 ölkə öz konstitusiyasında vətəndaşların sağlamlıq hüququnu tanıyır. Bununla belə, bütün dünyada bu hüquq çox vaxt təmin olunmur. Ən azı 4,5 milyard insan – dünya əhalisinin yarıdan çoxu əsas səhiyyə xidmətləri ilə tam əhatə edilmir, 2 milyard insan isə səhiyyə xərclərinə görə maliyyə çətinliyi ilə üzləşir. Xəstəliklər, təbii fəlakətlər, münaqişələr və iqlim dəyişikliyi ölüm və əlilliyə, aclığa və psixoloji sıxıntıya səbəb olur».

ÜST baş direktoru çıxış yolunu 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün var qüvvə ilə çalışmaqda, bu yolda irəliləyişi sürətləndirmək, bərabərliyi artırmaq və möhkəmlik yaratmaq üçün 14-cü Ümumi İş Proqramını nəzərdən keçirərək qəbul etməkdə görür.

Tedros Gebreyesus Assambleyada qurumun fəaliyyəti barədə hesabatla çıxış edib. Baş direktor çıxışında Azərbaycan səhiyyəsinə də toxunub. Belə ki, ÜST-nin səhiyyənin kadr potensialını gücləndirmək üçün ölkələrə dəstək verdiyini, təlimlər təşkil etdiyini deyən natiq bildirib ki, ÜST-nin dəstəyi ilə keçən il 95 ölkə infeksiyanın qarşısının alınması və ona nəzarət sahəsində mühüm irəliləyiş əldə edib. Bu sırada o, Azərbaycan, Qazaxıstan, Somali və Ukraynanı müstəsna misallar kimi göstərib.

Baş direktor ötən ilin malyariya ilə mübarizə sahəsində xüsusilə əlamətdar olduğunu deyib, Azərbaycanın, Belizin və Tacikistanın malyariyadan azad ölkə olaraq sertifikat aldıqlarını vurğulayıb.





Səhiyyə Assambleyasında iqlim dəyişikliyi, əhalinin qocalması, miqrasiya və elmi-texniki tərəqqi kimi qlobal tendensiyaların sağlamlığa mənfi nəticələrinin aradan qaldırılmasına yönəlmiş ÜST-nin 2025-2028-ci illər üçün strategiyası qəbul edilib. Həmçinin iqlim və sağlamlıq, səhiyyə sahəsində fövqəladə hallarda ÜST-nin işi, yoluxucu və qeyri-infeksion xəstəliklərə nəzarət, psixi sağlamlıq, qadın sağlamlığı və ÜST-nin özünün islahatları kimi bir sıra prioritet səhiyyə məsələləri üzrə vacib qərarlar qəbul olunub.



### Azərbaycan səhiyyə nazirinin çıxışı

Ümumdünya Səhiyyə Assambleyasının 77-ci sessiyasının plenar iclasında Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev çıxış edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, bəşəriyyətin üzləşdiyi son qlobal təhlükələr parçalanmış dünyanı bərpa etmək üçün bizləri sıx əməkdaşlıq etməyə sövq edir: «Son illərdə baş verən fövqəladə hallar bəşəriyyətin gözlənilməz hallara qarşı həssaslığını üzə çıxarıb. Fövqəladə hallara daha yaxşı hazırlıq davamlı qlobal səhiyyə infrastrukturunun mövcudluğunu tələb edir».

Nazirin sözlərinə görə, informasiya texnologiyalarının sürətli inkişafı tibbi xidmətləri əlçatan etməklə, «Hər kəs üçün sağlamlıq» arzusunun reallaşmasına imkan yaradıb. O, diqqətə çatdırıb ki, son 20 ildə Azərbaycanda milli səhiyyə sisteminin gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Belə ki, 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub, müasir tibbi avadanlıqlarla təchiz edilib: «Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın məqsədlərindən biri də vətəndaşların sağlamlığının təmin edilməsidir».

Nazir çıxışında 2024-cü ilin Azərbaycanda «Yaşıl dünya naminə həmrəylik ili» elan edildiyini xüsusilə vurğulayıb: «Dövlət başçısının Sərəncamında qeyd olunur ki, Azərbaycan Respublikası beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycan həmişə «yaşıl» gündəliyə sadiq olub və bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi bunun əyani sübutudur».

«Belə mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi Azərbaycana beynəlxalq ictimaiyyət tərəfindən böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir», – deyə Teymur Musayev qeyd edib.

Azərbaycanda «Hər kəs üçün sağlamlıq» konsepsiyasının keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz qayıtmasının təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran nazir «Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Azərbaycan hökumətinin işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində mühüm işlər gördüyünü deyib: «Vaxtilə işğal altında olan torpaqların mina və partlayıcı maddələrlə həddindən artıq çirklənməsi məskunlaşma proseslərinə maneələr yaradır. Bu, milli səhiyyə sistemi üçün də ciddi çətinliklər törədir».

«Biz səhiyyə üzrə qlobal əlaqələndirici təşkilat kimi Ümumdünya Səhiyyə Təşkilatını dünya əhalisinin sağlamlığını və rifahını qorumaq üçün vahid norma və standartları müəyyən etməyə çağırırıq. Bu mövzuda strateji sənədlərin işlənib hazırlanması, eyni zamanda, Təşkilatın üzv ölkələri tərəfindən yekdilliklə dəstəklənməsinin zamanıdır», – deyə Azərbaycan səhiyyə naziri fikrini tamamlayıb.

Ümumdünya Səhiyyə Assambleyası çərçivəsində həmçinin Teymur Musayevin ÜST-nin üzv ölkələrinin səhiyyə nazirləri ilə ikitərəfli görüşləri və digər işçi tədbirləri keçirilib.



**Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 101 il keçir.**

# Səhiyyə Nazirliyinin kollektivi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad edib

Bu münasibətlə Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad edib.

Bu barədə Nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın milli səhiyyəsinin inkişafına, peşəkar tibbi kadrların hazırlanmasına həmişə xüsusi diqqət və qayğı göstərib.

# Səhiyyə Nazirliyi əhaliyə elektron reseptlərlə bağlı müraciət edib

**Nazirlər Kabinetinin 2023-cü il 14 aprel tarixli Sərəncamına əsasən, Səhiyyə Nazirliyi 2024-cü il may ayının 1-dən etibarən ölkədə səhiyyə sahəsində rəqəmsallaşdırma çərçivəsində önəmli addımlardan olan Elektron Resept Platformasını istifadəyə verib.**




Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, kağız blanklar üzərində əl ilə yazılan reseptlərdən fərqli olaraq, elektron reseptin itirilməsi, zədələnməsi mümkün deyil. Elektron reseptlərdə yalnız dövlət qeydiyyatından keçən və qiymətləri Tarif Şurası tərəfindən təsdiqlənən dərman preparatlarının təyin edilməsi və apteklər tərəfindən satışı nəzərdə tutulur. Bu da öz növbəsində əhaliyə keyfiyyətsiz və vaxtı ötən dərman preparatlarının satışının qarşısını alır, eyni zamanda, şəffaf qiymətləndirmə ilə yanaşı, onların istehlakçı hüquqlarının qorunmasına xidmət edir.

Səhiyyə Nazirliyi vətəndaşları öz istehlakçı hüquqlarının qorunması naminə, reseptlərin təyin və təmin olunması zamanı bu proseslərin «Elektron resept» tətbiqi vasitəsilə aparılması üçün təşəbbüs göstərməyə və həm təyin edən tibb işçilərindən, həm də əczaçılardan buna əməl etmələrini tələb etməyə çağırır.

Elektron reseptlərlə bağlı qaydalara əməl olunmadığı təqdirdə, vətəndaşların Səhiyyənin İnformasiyalaşdırma Mərkəzinin nəzdində fəaliyyət göstərən «Qaynar xətt» nömrələri ilə (099412-431-38-28; 099455 531-38-28 («WhatsApp») əlaqə saxlamağı tövsiyə edilir.

# Apreldə ölkə üzrə 50 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.**




Mərkəzdən verilən məlumata görə, 2024-cü ilin aprel ayı ərzində Bakı şəhəri üzrə 15, ölkənin digər şəhər və rayonlarında isə 35 aptek olmaqla, ümumilikdə 50 aptekdə yoxlama aparılıb.

Aparılan yoxlamalar nəticəsində 7 aptekdə nöqsanlar aşkarlanıb. İnzibati Xətalar Məcəlləsinin 215.4, 452.3 maddələri üzrə protokollar tərtib edilib.

# Estetik cərrahiyyə və kosmetologiya sahəsində qanun pozuntularına yol verənlər məsuliyyətə cəlb olunub

**Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səhiyyə Nazirliyi tərəfindən əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarının təmin olunması və etibarlı müdafiəsi, tibbi xidmətlərin icrası zamanı yol verilən qanunsuzluqların aşkar olunaraq qarşısının alınması, həmçinin hüquqpozmalara yol verən şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində mütəmadi olaraq kompleks tədbirlər həyata keçirilir.**

Bu barədə Baş Prokurorluq və Səhiyyə Nazirliyinin birgə məlumatında bildirilir ki, hər iki quruma estetik cərrahiyyə və kosmetoloji fəaliyyətlə bağlı daxil olmuş çoxsaylı müraciətlər əsasında tibb müəssisələrinin fəaliyyəti monitorinq edilib, qeyd olunan sahədə qanunvericiliyin tələblərinə riayət olunması istiqamətində birgə araşdırmalar aparılıb.

Araşdırmalar zamanı estetik cərrahiyyə əməliyyatları icra edən, kosmetoloji xidmətlər göstərən ümumilikdə 9 klinika və kosmetoloji mərkəz tərəfindən sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması, yəni əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma, qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılması halları müəyyən edilib. Bu səbəbdən İnzibati Xətalar Məcəlləsinin 192.1-ci, 210.1-ci və 215.4-cü maddələri ilə tibb müəssisələrinin vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında 14 icraat başlanılıb.

Bundan başqa, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə uyğun olaraq, qanun pozuntularından çəkindirmək məqsədi ilə 8 halda vətəndaşlara və vəzifəli şəxslərə xəbərdarlıq edilib, habelə həmin Qanunun 23-cü maddəsinə əsasən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün dövlət qurumlarına 7 təqdimat verilib.

Baş Prokurorluq və Səhiyyə Nazirliyi tibbi xidmətlərin icra vəziyyətinə dair müvafiq araşdırmaların davam etdiriləcəyini və hüquq pozuntularına yol verənlərin məsuliyyətə cəlb olunacağını bildirir, bu sahədə fəaliyyət göstərən tibb müəssisələri və şəxslərdən qanunvericiliyin tələblərinə dönmədən riayət olunmasını tələb edir.

Respublika Baş Prokurorluğu plastik cərrahiyyə və digər estetik prosedurların keçirilməsinə dair maarifləndirmə materialı da yayıb.

Məlumatda bildirilir ki, plastik cərrahiyyə əməliyyatı və ya digər estetik prosedurlar həkim təyinatı əsasında həyata keçirilməli, bundan əvvəl həmin prosedurun şəxsin həyat və sağlamlığına təsirinə dair müayinəsi aparılmalıdır. Proseduru icra edən həkim pasiyentdən həmin müayinənin aparılmasını tələb etməlidir.

Maarifləndirmə materialında vətəndaşların nəzərinə çatdırılır ki, plastik cərrahiyyə əməliyyatı və ya digər estetik prosedur son zərurət halında həyata keçirilməli, hər bir şəxs üzrə keçirilmiş prosedurların qeydiyyatı aparılmalı, növbəti dəfə müraciət edildikdə əvvəlki prosedurlar barədə məlumat verilməli və həkim tərəfindən yoxlanılmalıdır.

Estetik proseduru həyata keçirən şəxsin müvafiq tibbi təhsili olmalı, həmçinin bu sahədə ixtisaslaşmalıdır.

Plastik cərrahiyyə əməliyyatını aparan şəxsin ali tibbi təhsili olmaqla yanaşı, bu sahədə ixtisaslaşmalıdır.

Ali tibbi təhsil almadan həkim və ya həkim-kosmetoloq adından istifadə etmək yolverilməzdir.

Plastik, rekonstruktiv və estetik əməliyyatlar ixtisaslaşmış həkim personalı tərəfindən həyata keçirilməli, həmin əməliyyatlar ümumi cərrahiyyə ixtisasına malik olan həkim və tibb personalı tərəfindən aparılmalıdır.

Plastik, rekonstruktiv və estetik əməliyyatlar aparılan klinikalarda reanimatologiya xidmətləri tələb olunduğu zaman bu xidməti göstərən personal olmalıdır.

Plastik cərrahiyyə əməliyyatı və digər prosedurlar zamanı ölkə ərazisinə gətirilən müxtəlif tərkibli kosmetoloji vasitə və preparatların daşınması və tətbiqi xüsusi rejim tələb edir. Yararlılıq sertifikatları olmayan, keyfiyyətsiz və ya aşağı keyfiyyətli bir sıra vasitələrin istifadəsi ağır nəticələr verə bilər.

Həkim tərəfindən plastik və estetik prosedurların həyata keçirilməsi zamanı xəstəlik vərəqəsi və xəstəlik tarixi haqqında qanunvericiliyin tələblərinin yerinə yetirilməsi zəruridir.

İstənilən invaziv müdaxilə zamanı, yəni insan bədəninə müdaxilə zamanı tibb vərəqələri açılması təmin edilməli və «Vahid Səhiyyə İnformasiya Sistemi» vasitəsilə elektron sənəd formasında tərtib olunmalıdır.

# ÜST eksperti Azərbaycanda İİV/QİÇS mövzusunda təlim keçib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) BMT-nin Əhali Fondunun dəstəyi ilə, Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzi ilə birlikdə yerli mütəxəssislər üçün «İİV/QİÇS-in (insanın immunçatışmazlığı virusu qazanılmış immun çatışmazlığı sindromu) diaqnostikası, müalicəsi və profilaktikasında müasir yanaşmalar» mövzusunda təlim təşkil edib.**

AZƏRTAC-ın verdiyi xəbərə görə, ÜST-nin Avropa üzrə Regional Ofisinin ekspertinin keçirdiyi təlimdə 200-ə yaxın ilkin səhiyyə və stasionar tipli tibb müəssisələrinin müxtəlif ixtisaslar üzrə həkimləri, digər müvafiq qurumlardan, təhsil ocaqlarından nümayəndələr iştirak ediblər.

Təlimin əsas məqsədi xəstəliyin profilaktikası, diaqnostikası və müalicəsinə dair tibb işçilərinə və müvafiq qurumların və təhsil ocaqlarının mütəxəssislərinə müasir yanaşmaları təqdim etmək, bununla da 2030-cu ilədək İİV/QİÇS-ə son qoymaq məqsədinə nail olmaq üçün strateji yönümlü cavab tədbirlərinin həyata keçirilməsinə dəstək göstərməkdir.

Tədbirdə çıxış edən ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı və səhiyyə nazirinin müavini Nadir Zeynalov İİV/QİÇS epidemiyasının dayandırılmasında tibb işçilərinin bilik və bacarıqlarının, eyni zamanda, tədris proqramlarının beynəlxalq yanaşmalara uyğunlaşdırılması və təkmilləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

H.Harmancı qeyd edib ki, İİV infeksiyasının tam müalicəsi olmasa da, beynəlxalq təlimatlara uyğun səmərəli profilaktika, diaqnostika, müalicə və qayğı xidmətlərinə əlçatanlığı təmin etməklə İİV infeksiyasını idarəolunan xroniki xəstəliyə çevirmək və bununla da İİV-lə yaşayan insanlara uzun və sağlam həyat sürməyə imkan yaratmaq mümkündür. ÜST ölkələrə İİV infeksiyasının aşkarlanma sayını yüksəltmək və yoluxmuşları erkən müalicəyə cəlb etmək üçün yeni test alqoritmi və müayinənin desentralizasiyasını tövsiyə edir. Bu missiya çərçivəsində İİV, hepatit B və sifilis infeksiyalarının anadan uşağa ötürülməsinin üçlü eliminasiyası strategiyası və ÜST-nin bu sahədə dəstəkləyici fəaliyyətləri də müzakirə olunub.

H.Harmancı bildirib ki, təlimdə İİV epidemiyasının müasir aspektləri, diaqnostikada yeni test alqoritmi, anadan uşağa ötürülmənin profilaktikası və üçlü eliminasiya, təmasdan əvvəl profilaktika (PrEP) daxil olmaqla İİV-in profilaktikası, İİV və ko-infeksiyaların müalicəsində müasir yanaşmalar, İİV-lə yaşayan insanların vaksinasiyası, stiqma və diskriminasiya mövzuları üzrə ÜST-nin son tövsiyələri əhatə edilib. Hər günün sonunda iştirakçılar təqdim olunan məlumatların mənimsənilməsi üçün qrup işi tapşırıqları üzərində çalışıblar. ÜST İİV epidemiyasının dayandırılması istiqamətində ölkələrə texniki dəstək göstərməyə hər zaman davam edəcək.




Sonra çıxış edən Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova bildirib ki, dünyada İİV/QİÇS-ə qarşı aparılan mübarizəyə baxmayaraq, onun xüsusən də Şərqi Avropa və Mərkəzi Asiya regionunda yayılması davam etməkdədir. Azərbaycanda bu infeksiya əsasən yoluxmaya yüksək riskli qruplar arasında yayılıb. Risk qrupları arasında aparılan məqsədli fəaliyyət Səhiyyə Nazirliyinin daim dəstəyi sayəsində İİV infeksiyasının yayılmasını illər boyu məhdud, təmərküzləşmiş mərhələdə saxlamağa imkan verib. Lakin son illər digər region ölkələrində olduğu kimi, Azərbaycanda da heteroseksual yoluxma yolu üstünlük təşkil edir.

Ümumilikdə, Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkarlandığı 1987-ci ildən 2024-cü ilin I rübünün sonunadək Respublika QİÇS-lə Mübarizə Mərkəzində 9598 nəfər İİV-lə yaşayan Azərbaycan vətəndaşı rəsmi qeydiyyata alınıb. Onlardan 6668-i (69,5 faiz) kişi, 2930-u (30,5 faiz) qadındır: «Həmin dövr ərzində Mərkəzdə qeydiyyata götürülmüş ölkə vətəndaşlarından 32,4 faizində İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində, 56,4 faizində heteroseksual, 5,6 faizində homoseksual kontakt nəticəsində, 1,4 faizində anadan uşağa keçməklə baş verib. 4,2 faizində yoluxma yolu müəyyənləşdirilməyib».

Direktor müavini diqqətə çatdırıb ki, Səhiyyə Nazirliyi tərəfindən İİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsi işini Respublika QİÇS-lə Mübarizə Mərkəzi davam etdirir. Belə ki, 2006-cı il noyabrın 8-dən tətbiq edilən antiretrovirus terapiyaya hazırda 9130 İİV-lə yaşayan insan cəlb olunub. Gənclər arasında maarifləndirmənin davamı olaraq bu ilin fevralında Azərbaycan Tibb Universitetinin tələbələri üçün «Dünyada və Azərbaycanda İİV/QİÇS» adlı seminar keçirilib. Cari il ərzində Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən Mingəçevir, Gəncə, Bərdə şəhərləri, Tərtər, Ağcabədi, Goranboy rayonlarındakı keçmiş məcburi köçkün qəsəbələrində məskunlaşmış köçkünlər arasında İİV/QİÇS-lə mübarizə istiqamətində maarifləndirici tədbirlər və İİV, sifilis, hepatit B və C infeksiyalarının skrininqi məqsədilə kütləvi müayinələr aparılıb. Eyni zamanda, Respublika QİÇS-lə Mübarizə Mərkəzi və Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun birgə təşkilatçılığı ilə Goranboy, Göyçay, Kürdəmir, Ağdaş, Ucar rayonlarında həssas əhali qrupları arasında İİV, hepatit C və B, sifilis və vərəmin aşkarlanması məqsədilə müayinə aksiyaları keçirilib: «Bu ilin birinci rübü ərzində İİV-ə yoluxmaya həssas əhali qrupları arasında İİV/QİÇS-lə mübarizənin təkmilləşdirilməsi məqsədilə həmin qrup nümayəndələri ilə profilaktik işlərə cəlb olunan qeyri-hökumət təşkilatlarının əməkdaşları üçün silsilə təlimlər təşkil edilir.

Respublika QİÇS-lə Mübarizə Mərkəzi COVID-19 pandemiyası ilə mübarizədə fəaliyyətini hələ də davam etdirməkdədir. Belə ki, Mərkəzin laborator xidmət bazasında COVID-19-un diaqnostikası təşkil olunub və hazırda aparılır».



# Səhiyyə Nazirliyi Zəngilan və Cəbrayıl rayonlarında kardioloji müayinələr təşkil edib

**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində əhali arasında kompleks tibbi müayinələrin, eyni zamanda, sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən növbəti belə tədbir Zəngilanda baş tutub. Aksiya zamanı Səhiyyə Nazirliyi Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) tibb heyəti tərəfindən rayonun Ağalı kəndində əhali üçün kardioloji müayinələr təşkil edilib. İnstitutun təcrübəli həkimləri Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində də əhalinin tibbi müayinələrini keçirib.




Tədbirin əsas məqsədi vətəndaşlarda ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin edilməsidir.

Aksiya çərçivəsində ETKİ-nin kardioloq, nevropatoloq, endokrinoloqlardan, tibb bacısı və laboratoriya mütəxəssislərindən ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış aparılıb, ExoKQ, EKQ müayinələri keçirilib. Eyni zamanda, qanda şəkər, ekspres üsulla xolesterinin səviyyəsi təyin olunub.

Tədbirdə iştirak edən Ağalı və Cocuq Mərcanlı kəndlərinin əhalisinin müayinəsi zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı Ağalı kəndində 250-yə yaxın, Cocuq Mərcanlı kəndində isə 150-dən artıq vətəndaş müayinələrdən keçirilib. Ehtiyacı olan vətəndaşlara paytaxta invaziv müayinə üçün göndərişlər verilib.

Müayinələrdən sonra sağlam həyat tərzinin təşviqi ilə bağlı, eyni zamanda, yüksək təzyiq və ürək tutması zamanı ilk tibbi yardımın göstərilməsinə dair Zəngilan və Cəbrayıl ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub.

Toplantıda institutun direktoru, professor Gülnaz Dadaşova ətraflı təqdimatla çıxış edib. Direktorun sözlərinə görə, Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Kardiologiya İnstitutunda ürək-damar sistemi xəstəliklərinin ölkə üzrə milli epidemioloji registri hazırlanır. Bu səbəbdən, işğaldan azad olunmuş ərazilərdə aparılan müayinələr xüsusi əhəmiyyət kəsb edir və əldə olunan nəticələr milli registrə əlavə olunacaq. Registrin yaradılması ölkəmizdə ürək-damar sistemi xəstəliklərinin qarşısını almağa, erkən diaqnostikaya və statistik araşdırmalara imkan verəcək və bu artımın azaldılmasına zəmin yaranacaq.

Eyni zamanda, tədbirdə yerli əhaliyə ürək-damar xəstəlikləri və onların profilaktikası haqqında faydalı məlumatlar verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, işğaldan azad olunan digər ərazilərdə də Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

# Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi səyyar oftalmoloji müayinələr keçirib

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Avtomobil Klinikası tərəfindən Zəngilan rayonunun Ağalı kəndində əhali üçün ikigünlük oftalmoloji tibbi müayinələr aparılıb.**



«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq təşkil olunan belə tədbirlər zamanı vətəndaşlar arasında müxtəlif tibbi müayinələr, eyni zamanda, sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar keçirilir.

Səyyar oftalmoloji müayinələrin başlıca məqsədi operativ şəkildə vətəndaşların müayinəsi, görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması, görmə patologiyasının erkən diaqnostikası və müalicələrin təyin olunmasıdır.

Zəngilandakı tibbi aksiyanın ilk günündə 130-a yaxın sakin oftalmoloji müayinədən keçib. Müayinələr əsasında vətəndaşlarda quru göz sindromu, allergik konyunktivit, refraksiya patologiyaları, miopik astiqmatizm və digər xəstəliklər aşkarlanıb.

Eyni zamanda, göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılıb və əldə edilən nəticələr müzakirə olunub. Həmçinin ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Aksiya zamanı qeyd olunub ki, bəzən göz xəstəliklərinin simptomları diqqətdən kənarda qala bilər. Göz patologiyasını ilkin mərhələdə müəyyən etmək üçün sakinlərə mütəmadi olaraq ümumi oftalmoloji müayinələrdən keçmələri tövsiyə olunub.

May ayı ərzində Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikası Zəngilanla yanaşı, Yevlax şəhərinin sakinləri, eləcə də paytaxtda Bakı Dövlət Universitetinin müəllim və tələbələri üçün, Mərkəzin Dəmiryol Səyyar Klinikası isə Astara rayon sakinləri üçün analoji tibbi aksiyalar həyata keçirib.

# ATU ilə Səmərqənd Tibb Universiteti birgə elmi konfranslar təşkil edəcək

**Azərbaycan Tibb Universitetinin (ATU) Özbəkistanın Səmərqənd Tibb Universiteti ilə əlaqələri növbəti mərhələyə qədəm qoyub. İki ali təhsil müəssisəsi arasında əməkdaşlığa dair memorandum imzalanıb.**

ATU-nun Mətbuat xidmətindən verilən məlumata görə, imzalanma mərasimində universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək iki ali məktəb arasında münasibətlərin çoxillik tarixə əsaslandığını bildirib. O, indiyədək universitetlər arasında qarşılıqlı səfərlər, birgə layihələrin olduğunu, ötən il ATU-nun tələbələrinin IV Beynəlxalq «Səmərqənd - 2020» Olimpiadasında uğur qazandığını xatırladıb. Rektor sazişin imzalanmasından sonra əməkdaşlıq əlaqələrinin daha da gücləndəcəyini, iki universitetin müştərək beynəlxalq proqramlarda iştirakının təmin olunacağını qeyd edib.



Səmərqənd Tibb Universitetinin rektoru professor Jasur Rizayev yeni imzalanmış memorandumun iki universitet arasında hərtərəfli əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli olduğunu vurğulayıb. O, qarşılıqlı əməkdaşlığın tələbə və müəllim mübadiləsi ilə yanaşı, mövcud təcrübənin paylaşılmasına, ikili diplomların reallaşmasına da aid olacağını bildirib.

ATU ilə Özbəkistanın Səmərqənd Tibb Universiteti arasında memorandum elmi mübadilə ilə yanaşı, birgə elmi konfransların və seminarların təşkilini, qarşılıqlı faydalı təcrübə mübadiləsinin aparılmasını nəzərdə tutur.

Qeyd edək ki, Səmərqənd Dövlət Tibb Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin fəaliyyəti ilə tanış olmaq məqsədilə Bakıda bir neçə günlük səfərdə olub. Bu müddətdə qonaqlar ATU-nun Stomatoloji Klinikasında, İnsan anatomiyası və tibbi terminologiya, Patoloji fiziologiya, Patoloji anatomiya, Ağız və üz-çənə cərrahiyyəsi kafedralarında tanışlıq xarakterli görüşlər keçirib, qarşılıqlı fikir mübadiləsi aparıblar, eyni zamanda, Anatomiya Muzeyində saxlanılan unikal eksponatlarla tanış olublar.

# Oftalmoloqların XIII Regional konfransı keçirilib

**Gəncə şəhərində akademik Zərifə Əliyevanın 101 illiyinə həsr olunmuş XIII Regional konfrans keçirilib. Tədbir Səhiyyə Nazirliyinin, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, konfransın keçirilməsində məqsəd oftalmologiyada baş verən yenilikləri, aktual məsələləri müzakirə etmək, həmçinin region həkimlərinin inkişafına dəstək olmaqdır.

Tədbirdə Bakı, Qobustan, Şəki, Gəncə, Goranboy, Yevlax, Bərdə, Ağstafa, Göyçay və digər rayonlardan mütəxəssis və alimlər iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, professor Elmar Qasımov Ulu Öndər Heydər Əliyevin səhiyyə, xüsusilə oftalmologiya sahəsinə ayırdığı diqqətdən, akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafında müstəsna xidmətlərindən bəhs edib. Professor E.Qasımov Azərbaycanda oftalmologiya sahəsinin təkcə paytaxtda deyil, regionlarda da yüksək səviyyədə inkişaf etdiyini diqqətə çatdırıb.

Konfransda «Göz travmaları zamanı korluqla mübarizə», «Gəncə şəhərində çəpgözlük diaqnozu ilə aparilan müayinə və müşahidələrin nəticələri», «Mərkəzi seroz xorioretinopatiya», «Anti-VEGF terapiyası və yaşa bağlı makula degenerasiyasının müalicəsində uğursuzluqların səbəbləri», «AOC Gənc Oftalmoloqlar Komitəsi: Amal, məqsəd və məramlar», «Göyçay rayonu üzrə konyunktivitin rastgəlmə tezliyi və diferensial diaqnostikası», «Katarakta əməliyyatından sonra quru göz sindromu» mövzularında məruzələr dinlənilib.


## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**«Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ**

Tibb bacısı (qardaşı) - 2.0 (Yenidoğulmuşların reanimasiyası və intensiv terapiya şöbəsi)
Laborant - 1.0 (Laboratoriya şöbəsi)

*Ünvan: K.Kazımzadə küç., 118*
*Telefon: 510 - 61 - 19*

**«Respublika Narkoloji Mərkəzi» PHŞ**

Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Ş.Hüseyn küç., 71*
*Telefon: 558-75-16*

**Gəncə şəhər Gigiyena və Epidemiologiya Mərkəzi**

Tibbi-statistik - 1.0

*Ünvan: İ.Qayıbov küç., 207*
*Telefon: (02225) 6-12-43*

**Suraxanı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant - 1.0

*Ünvan: Ş.Məhərrəmov küç.,1*
*Telefon: 452-24-07*

**«Respublika QİÇS-lə Mübarizə Mərkəzi» PHŞ**

Feldşer-laborant - 1.0 (Yevlax regional laboratoriyasına)

*Ünvan: Mir Qasımov, küç.,18.*
*Telefon: 510-08-69*



Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@health.gov.az

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.

İndeks: 1065 Tiraj: 12000

# Naxçıvanda «Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı» keçirilib

**Naxçıvan şəhərində Azərbaycan Tibb Universiteti (ATU) və Naxçıvan Dövlət Universitetinin (NDU) birgə təşkilatçılığı ilə «Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı» keçirilib.**

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş konfransdan əvvəl qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini dərin ehtiramla anıblar.

ATU-dan verilən məlumata görə, konfransın açılış mərasimində çıxış edən **Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus Əliyev** ATU ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən önəmli layihələr, birgə araşdırmalardan bəhs edərək, tədbirin tələbə və tədqiqatçıların elmi müzakirələri, gənc alimlərin potensialının reallaşdırılması istiqamətində səmərəli platforma olacağına əminliyini bildirib. Hazırda dünyada elm sahəsində hökm sürən rəqabət şəraitində hər bir universitetin, ali təhsil mərkəzinin yüksəkixtisaslı kadrlar yetişdirmək üçün elmi tədqiqatların məzmununun gücləndirilməsinə, sayının artırılmasına ehtiyacı olduğunu vurğulayan rektor konfransın işinə uğurlar arzulayıb.



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli** tibb təhsili sahəsində böyük əhəmiyyət daşıyan bu tədbirin qədim Naxçıvanda keçirilməsinin sevindirici hal olduğunu bildirib. O, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin əsas istiqamətlərindən birinin gənclərə və təhsilə daimi diqqət və qayğı olduğunu xatırladıb: «Ulu Öndərin hakimiyyəti dövründə məhz onun səyləri ilə Azərbaycanın istedadlı gənclərinin Sovet İttifaqının aparıcı universitetlərində təhsilinə şərait yaradılıb. İllər keçdikcə, belə gənclərin sayı artıb. Ulu Öndər hər il avqustun son günlərində müxtəlif universitetlərdə təhsil alacaq gənclərlə görüşüb, onları şəxsən təbrik edirdi. Həmin dövrdə elmə, təhsilə göstərilən bu cür diqqət qısa müddət sonra bəhrəsini verməyə başladı».

ATU-nun rektoru həmin siyasətin indi də dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Məhz həmin yanaşma sayəsində Azərbaycanın ali təhsil mərkəzləri artıq dünyada rəqabətqabiliyyətli universitetlərə çevrilməkdədir. Professor G.Gəraybəyli ATU-nun dünyada 900-dən çox ali məktəbi birləşdirən «Magna Charta Universitatum» – Universitetlərin Böyük Xartiyasına üzv olduğunu, Azərbaycanda ilk dəfə olaraq 3 ixtisas üzrə universitetin tədris proqramının beynəlxalq akkreditasiyadan keçdiyini xatırladıb. Rektor çıxışının sonunda universitetlərin və tələbələrin elmi istiqamətdə inkişafında Tələbə Elmi cəmiyyətlərinin rolunu xüsusi qeyd edib. Naxçıvan Dövlət Universiteti ilə faydalı əməkdaşlıq çərçivəsində təşkil olunan konfransın əhəmiyyətini vurğulayan professor G.Gəraybəyli gənc tədqiqatçılara uğurlar arzulayıb.

Daha sonra ATU və NDU-nun Tələbə Elmi cəmiyyətlərinin rəhbərləri Müşviq Həsənov və Təbrizə Bağırova çıxış ediblər. Çıxışların ardınca muxtar respublikanın 100 illiyindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransın plenar sessiyalarında hər iki universitetdən olan gənc tədqiqatçılar müxtəlif mövzularda təqdimatlar ediblər. İki gün davam edən konfrans çərçivəsində kliniki təbabət, tibbi biologiya, ictimai sağlamlıq, əczaçılıq, qida təhlükəsizliyi və stomatologiya mövzularında panel sessiyalar keçirilib.

Azərbaycan Tibb Universiteti bu tədbirdə geniş nümayəndə heyəti ilə təmsil olunub. İlk dəfə olaraq ATU-nun 30-a yaxın müəllimi və 50-dən çox tələbəsi Naxçıvana səfər edib.

# Akademik Mirməmməd Cavadzadəyə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Səhiyyə Nazirliyinin, TƏBİB-in, Akademik M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxananın, Azərbaycan Uroloqlar Assosiasiyasının birgə təşkilatçılığı ilə akademik Mirməmməd Cavadzadənin 97 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları akademik M.Cavadzadənin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Tədbirdə çıxış edən **Respublika Kliniki Uroloji Xəstəxananın direktoru Fariz Babayev** akademik Mirməmməd Cavadzadənin tibb sahəsindəki əvəzsiz xidmətlərindən danışıb. F.Babayev akademiklə illər boyu birlikdə çalışdığını, onun dərin biliyi və təcrübəsi sayəsində tibbin inkişafında əhəmiyyətli addımlar atıldığını vurğulayıb. O, son illərdə xəstəxanadakı yeniliklərdən də bəhs edib: «Bu yeniliklər arasında yeni texnologiyaların tətbiqi, müasir müalicə üsullarının inkişafı və xəstələrin yüksəkkeyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzindədir. Klinikada tibb elminin ən son nailiyyətlərindən istifadə edilərək, bir çox kompleks əməliyyatlar və müalicə prosedurları uğurla aparılır. Bu yeniliklər tibb sahəsində böyük irəliləyişlərə yol açıb və xəstələrin sağlamlıq göstəricilərinin yaxşılaşmasına mühüm təsir göstərib».

Sonra klinikanın **həkim-uroloqu Samir Cavadzadə** akademik Mirməmməd Cavadzadənin həyat və tibb sahəsində göstərdiyi fəaliyyəti barədə ətraflı məlumat verib.

Tibb elmləri doktoru, professor Sudeif İmamverdiyev, Milli Məclisin deputatı İlham Məmmədov, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Nefrologiya kafedrasının müdiri Fuad Sərdarlı akademik M.Cavadzadə, eləcə də 1966-cı ildən indiyədək fəaliyyət göstərən klinika barədə fikirlərini bölüşüblər.

Tədbirdə «Distal və proksimal hipospadiya cərrahiyyəsi», «Sidik kisəsinin xərçəngönü xəstəlikləri», «Testikulyar feminizasiya zamanı müalicə taktikası», «HoLEP: XXI əsrdə prostatın xoşxassəli hiperplaziyasının cərrahi müalicəsi üçün qızıl standartdırmı?», «Böyrək daşlarının müalicəsində qızıl standart: ECIRS (Endoskopik Kombinə edilmiş Böyrəkdaxili Cərrahiyyə)», «Anomaliya zamanı nefrolitiazın endoskopik müalicəsi», «Böyrək ləyəni daşı zamanı perkutan nefrolitotomiya və laparoskopik pielolitotomiya: ilkin nəticələrimiz», «Böyrək daşlarının müalicəsində miniperkutan və retroqrad intrarenal nefrolitotripsiya üsullarının müqayisəsi», «Kişi sonsuzluğunun müalicəsinin bu günü və sabahı», «Prostat xərçənginin diaqnostikasına müasir yanaşma» və sair mövzularda məruzələr dinlənilib.

Konfrans müzakirələrlə davam etdirilib.

# «Təbabətin aktual problemləri» beynəlxalq elmi-praktiki konqresi keçirilib

**Azərbaycan Tibb Universitetində (ATU) «Təbabətin aktual problemləri» beynəlxalq elmi-praktiki konqresi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən ATU-nun rektoru professor Gəray Gəraybəyli dünyada tibbi texnologiyanın və müalicə metodlarının sürətlə inkişaf etməsinə baxmayaraq, hələ də təbabətdə həllini gözləyən çoxsaylı problemlərin mövcudluğunu, onların həlli yollarının axtarılmasının tibb elm adamları və mütəxəssislərini daim düşündürdüyünü bildirib. Qeyd olunub ki, bir çox xəstəliklərin erkən proqnozlaşdırılması, diaqnostikası və müalicəsi kompleks müalicə metodları ilə yanaşı, yeni texnologiyalar sayəsində daha sürətli və etibarlı üsulların tətbiqi ilə həyata keçirilə bilir. Bu baxımdan müasir müalicə metodlarının multidisiplinar müzakirəsi olduqca aktualdır: «Həyata keçirilən konqresin tibb elm adamları, müxtəlif ixtisasların mütəxəssisləri, həkim, rezidentlər, tibb təhsili alan tələbələr üçün nəzəri və praktik əhəmiyyət daşıyacağı şübhəsizdir. Təşkilat komitəsi günümüzdə elmi və praktik ehtiyacların ödənməsi üçün müasir texnologiyaları, müalicə metodlarını, yanaşmaları müzakirə etməyi qarşıya məqsəd qoyub. Bunun üçün konqresdə təbabətin müxtəlif sahələrində aktual olan bir çox problemlərin həlli yolları haqqında tibb alimləri və mütəxəssislər tərəfindən elmi məruzələr təqdim olunacaq».

Konqresdə həmçinin Səhiyyə Nazirliyinin nümayəndəsi, Yeditepe Universiteti Süni Mayalanma Mərkəzi, Qadın xəstəlikləri və Doğum kafedrasının müdiri professor Erkut Attar, Harran Universiteti Tibb Fakültəsi Ümumi Cərrahiyyə və Cərrahi Onkologiya kafedrasının müdiri, Türk Cərrahi Dərnəyinin həmsədri professor Ali Uzunköy, Memorial Ankara Xəstəxanası Orqan Transplantasiyası şöbəsinin müdiri professor Acar Tüzüner, Özbəkistan Respublikası Səhiyyə Nazirliyinin baş neyrocərrahı, Neyrocərrahiyyə Mərkəzinin direktoru professor Qayrat Kariev və digərləri çıxış ediblər. Onlar qeyd ediblər ki, ölkənin səhiyyə sisteminin müasir və beynəlxalq çağırışlar fonunda inkişaf etdirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu istiqamətdə görülən işlər arasında səhiyyə infrastrukturlarının təkmilləşdirilməsi, səhiyyə işçilərinin ixtisaslaşması, müasir texnologiyaların tətbiqi və vətəndaşların sağlamlıq xidmətlərinə bərabər çıxışının təmin edilməsi kimi tədbirlər yer alır. Eyni zamanda, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və qlobal səviyyədə ən yaxşı təcrübələrin ölkəyə gətirilməsi də mühüm rol oynayır. Dövlətlər bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək səhiyyə sistemini daha da gücləndirmək üçün tədbirlər həyata keçirir.

Türkiyə, Özbəkistan və digər ölkələrdən mütəxəssislərin iştirak etdiyi «Təbabətin aktual problemləri» beynəlxalq elmi-praktik konqres öz işini plenar sessiyalarla davam etdirib.


17 iyun təqvimdə xüsusi bir tarixdir
Tibb İşçisi Günü!
“HB Co LTd “ şirkəti tibb işçilərini peşə bayramı münasibətilə təbrik edir, onlara uzun ömür, can sağlığı və işlərində uğurlar arzulayır!
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az